# UNUTMA!

## Müstəqil Azərbaycanın 1991-1993-cü illərdə işğal olunmuş bölgələri

| Sıra | Rayonların adı | Sahəsi | Kənd və digər yaşayış məntəqələrinin sayı | İşğal zamanı əhalinin sayı | İşğal olunduğu tarix | Şəhidlərin sayı | Milli Qəhrəmanların sayı |
|---|---|---|---|---|---|---|---|
| 1 | Xankəndi | 302 kv.km | 25 (25) | 18 min nəfər | 1991 | 102 nəfər | — |
| 2 | Xocavənd | 1458 kv.km | 78 (78) | 10 min nəfər | 18.02.1992 | 145 nəfər | — |
| 3 | Xocalı | 926 kv.km | 65 (65) | 12 min nəfər | 26.02.1992 | 3200 (613) | 10 nəfər |
| 4 | Şuşa | 289 kv.km | 30 (30) | 25 min nəfər | 08.05.1992 | 250 nəfər | 3 nəfər |
| 5 | Laçın | 1835 kv.km | 126 (126) | 60 min nəfər | 18.05.1992 | 262 nəfər | 5 nəfər |
| 6 | Kəlbəcər | 1936 kv.km | 124 (124) | 68 min nəfər | 02.04.1993 | 200 nəfər | 2 nəfər |
| 7 | Ağdərə | 1705 kv.km | 58 (58) | 49 min nəfər | 17.06.1993 | 145 nəfər | — |
| 8 | Ağdam | 1094 kv.km | 121 (80) | 150 min nəfər | 23.07.1993 | 5000 nəfər | 15 nəfər |
| 9 | Cəbrayıl | 1050 kv.km | 90 (89) | 59 min nəfər | 23.08.1993 | 381 nəfər | 6 nəfər |
| 10 | Füzuli | 1392 kv.km | 75 (51) | 100 min nəfər | 23.08.1993 | 1000 nəfər | 8 nəfər |
| 11 | Qubadlı | 802 kv.km | 95 (95) | 30 min nəfər | 31.08.1993 | 200 nəfər | 10 nəfər |
| 12 | Zəngilan | 707 kv.km | 83 (83) | 35 min nəfər | 30.10.1993 | 200 nəfər | 3 nəfər |
| | Cəmi: | 13490 kv.km | 970 | 616 min nəfər | — | 10085 nəfər | 62 nəfər |

*Qeyd: Mötərizədə göstərilmiş rəqəmlər ermənilər tərəfindən işğal olunmuş kəndlərin sayını əks etdirir.*

## NÜMUNƏVİ XİDMƏT



16075 saylı hərbi hissənin bilik və bacarığı, nizam-intizamı ilə fərqlənən hərbi qulluqçularından biri baş çavuş Sarvan Xanlarovdur. Hərbi hissə Komandanlığı tərəfindən müsbət xarakterizə edilən baş çavuş S.Xanlarov 14 ildir ki, Daxili Qoşunların sıralarında xidmət edir.

O, 1989-cu ildə Ukrayna Respublikasında Sovet ordusu tərkibində müddətli həqiqi hərbi xidmətdə olub. Hərbiyə hədsiz marağı olduğundan 2002-ci ildə Daxili Qoşunların sıralarında müddətdən artıq xidmət etmək üçün müraciət edib. Elə həmin ildən qoşunların 99713 saylı hərbi hissəsində həqiqi hərbi xidmətə başlayır. Hazırda 16075 saylı hərbi hissənin Maddi-Texniki Təminat xidmətlərində nəzarət texniki məntəqəsinin rəisi vəzifəsindədir.

O, funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşır. Hər gün avtomobil parkından çıxan və qayıdan maşınlara texniki nəzarəti həyata keçirir. Həmçinin, göstərilən texniki xidmətin, avtomobillərin saxlanılmasını və təmirin keyfiyyətini yoxlayır.

Avtomobillərin düzgün istismarının, onların texniki cəhətdən daima saz vəziyyətdə saxlanılmasının döyüş hazırlığında əsas amillərdən olduğunu qeyd edən baş çavuş S.Xanlarov hesab edir ki, vəzifəsindən asılı olmayaraq hərbi qulluqçular bir-birinə kömək etməlidirlər.

****

Nümunəvi xidməti ilə fərqlənən əsgər Qurbanzadə Əsgər Adil oğlu 12318 saylı hərbi hissənin patrul bölüyündə xidmət edir.



O, 1994-ci il iyulun 1-də Yardımlı rayonunun Daşkənd kəndində dünyaya göz açıb. 2011-2015-ci illərdə Azərbaycan Texniki Universitetinin "Radiotexnika və Rabitə" fakültəsində ali təhsil alıb.

2015-ci ilin iyul ayından Daxili Qoşunlarda müddətli həqiqi hərbi xidmətdədir. Çalışqanlığı, bilik və bacarığı ilə seçilən əsgərlərdəndir. Təhkim olunmuş fərdi silahın taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəyən əsgər Ə.Qurbanzadə atəş məşğələləri zamanı daima sərrastlıq göstərərək yüksək nəticələr əldə edir.

O, hərbi xidmətin məsuliyyətini dərk edir, günün nizam qaydalarına ciddi yanaşır, öz üzərində daima çalışır. Təşəbbüskarlığı və fəallığı sayəsində qısa zamanda komandirlərin rəğbətini qazanıb.

Yüksək döyüş ruhuna malik olan vətənpərvər əsgərimiz doğma yurdumuza olan məhəbbətini belə ifadə edir: "Vətən müqəddəsdir! Onun hər qarış torpağı doğmadır. Hər birimiz boya-başa çatdığımız Vətənin müdafiəsində ayıq-sayıq, mətin dayanmalıyıq".

**leytenant N.Ağayeva,**
**gizir L.Hüseynova**

## HƏRBİ XƏBƏRLƏR

### Azərbaycan ordusu dünyanın ən güclüləri sırasında

**Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü ordularından biridir.**

"U.S. News and World Report" nəşri dünya ordularının reytinqini dərc edib. Nəticələr Davos Beynəlxalq İqtisadiyyat Forumunda təqdim olunub.

60 ölkə arasında hazırlanan hesabatda bildirilib ki, Azərbaycan ümumi sıralamada 38-ci yerdədir. Ermənistan ordusu siyahıda, ümumiyyətlə, yer almayıb.

Reytinqdə ilk üç pilləni müvafiq olaraq ABŞ, Rusiya və Çin tutur. Almaniya və Böyük Britaniya isə növbəti sıralarda qərarlaşıb.

Ölkəmiz siyahıda 38-ci pilləni tutmaqla, Macarıstan, Rumıniya, Çexiya, Malayziya, Argentina və digər ölkələri qabaqlayıb.

Ümumilikdə, MDB ölkələrindən reytinqdə Rusiya 2-ci, Ukrayna 29-cu, Qazaxıstan 31-ci yeri tutub. Qonşu ölkələrdən İran 12-ci, Türkiyə isə 17-ci yerdədir.

### Müdafiə Sənayesi Nazirliyi yeni silahların istehsalına hazırlaşır

Azərbaycan Müdafiə Sənayesi Nazirliyi (MSN) yeni silahların və döyüş sursatlarının istehsalına hazırlaşır.

Bu barədə müdafiə sənayesi naziri Yavər Camalov "Azərbaycan" qəzetində dərc olunmuş məqaləsində bildirib.

Nazir qeyd edib ki, hazırda alınmış və quraşdırılmış texnoloji xətlərdə müxtəlif tipli izburaxan gülləli patronların, müxtəlif çaplı və müxtəlif növ döyüş sursatları üçün partladıcıların, 6 növ kiçik və iri kalibrli lülələrin, 6 növ artilleriya və tank topları üçün mərmilərin, avtomatik topun istehsalının mənimsənilməsi işləri aparılır.

MSN-də aparılan elmi tədqiqat və təcrübi-konstruktor işlərindən də bəhs edən nazir Y.Camalovun sözlərinə görə, nazirliyin Elmi-Tədqiqat İnstitutu və Milli Aerokosmik Agentliyi tərəfindən ötən müddət ərzində yeni növ müdafiə təyinatlı texnikanın yaradılması istiqamətində məqsədyönlü işlər aparılıb.

### Türkiyənin döyüş təyyarəsi istehsalında ingilis şirkəti də iştirak edəcək

Böyük Britaniyanın "BAE Systems" şirkəti Türkiyənin 5-ci nəsil "TFX" döyüş təyyarəsinin istehsalında iştirak edəcək.

Məlumata görə, hazırda tərəflər arasında ilkin danışıqlar aparılır. Britaniyalıların proqramda iştirakına isə 2016-cı ildən başlanacağı gözlənilir. Hazırda Türkiyənin təyyarə istehsalı layihəsində İtaliyanın "Alenia Aermacchi", İsveçin "Saab" və Çinin "CATIC" şirkətləri iştirak edir. İstehsal prosesində "Airbus" şirkətinin də iştirakı ilə bağlı danışıqlar aparılır.

Təyyarənin ilk təqdimatının 2023-cü ildə keçiriləcəyi planlaşdırılır.

Xatırladaq ki, Türkiyə 2011-ci ildən təyyarə istehsalı ilə bağlı layihəyə start verib.

### Aerozol antenalarının sınaqları başlayır

ABŞ Hərbi Hava Qüvvələrinin (HHQ) Tədqiqat laboratoriyası yeni istehsal olunan aerozol antenalarının sınaqlarına başlayacaq. Antenalar "Tiger Shark" pilotsuz uçuş aparatlarına (PUA) inteqrasiya olunacaq. PUA bu tip 50 antena ilə təchiz ediləcək.

Avadanlığın istehsalı ilə bağlı bir neçə ildir tədqiqat işləri aparılır. Aerozol antenalarının hərbi texnologiyada tətbiqi ilə bağlı işlərin daha sürətlə davam etdirilməsi nəzərdə tutulub. Layihənin həyata keçirilməsi üçün hökumətə müvafiq təkliflər də təqdim olunub. Hərbçilər hesab edir ki, bu tip antenaların yaradılması həm maddi, həm də texnoloji baxımdan rentabellidir.

Antenaların texniki xarakteristikası ilə bağlı isə ətraflı məlumat verilmir.

### ABŞ F-16 təyyarələrini modernləşdirir

ABŞ Silahlı Qüvvələrinin F-16 döyüş təyyarələrinin radiolakasiya sistemi (RLS) yenisi ilə əvəzlənəcək. Məlumata görə, ABŞ hərbi rəhbərliyinin qərarına əsasən, qısa zamanda Silahlı Qüvvələrin F-16 parkı modernləşdiriləcək və bu təyyarələr yeni sistemlərlə təchiz olunacaq.

Artıq bunun üçün dövlət büdcəsindən 40 milyon ABŞ dolları ayrılıb. Bu vəsaitlə təyyarələr yeni bort-radar sistemi və RLS-lərlə təchiz ediləcəklər.

Yeni sistemlərin hansı üstünlüklərinin olacağına dair isə hər hansı bir məlumat verilməyib.

### Qazaxıstan ilk "Marauder"lərini 2016-cı ildə alacaq

Qazaxıstan Silahlı Qüvvələri 2016-cı ildə yerli müəssisədə istehsal edilmiş zirehli maşınların ilk partiyasını alacaq.

Qazaxıstan Müdafiə Nazirliyinin yaydığı məlumata görə, hazırda "Kazakhstan Paramount Engineering" müəssisəsində sifarişin reallaşdırılmasına başlanıb.

Müəssisədə CAR-ın "Paramount Group" şirkəti ilə müştərək "Marauder", "Mbombe" və daxili təhlükəsizlik maşınları istehsal ediləcək. Bu maşınlar mina əleyhinə yüksək müdafiəyə malikdir.

Qeyd edək ki, Qazaxıstan Silahlı Qüvvələrinin "Marauder" maşınları "ASELSAN" şirkətinin istehsalı olan "SARP" döyüş modulu ilə silahlandırılacaq.

## İDMAN

***Yanvar ayının 23 və 24-də 99713 saylı hərbi hissədə idmanın ağırlıq çəki daşlarının qaldırılması növü üzrə Daxili Qoşunların birinciliyi uğrunda yarış keçirilib. Yarışda Ali Hərbi Məktəb və hərbi hissələrin komandaları iştirak edib.***



Şəxsi və komanda birinciliyi uğrunda yarışın nəticələri aşağıdakı kimi olub:

### Çəki daşlarının qaldırılması üzrə:

**65 kq**

**I yer** - əsgər Vəliməmməd Vəlizadə (99713 saylı hərbi hissə)
**II yer** - leytenant Nadir Şərifov (12318 saylı hərbi hissə)
**III yer** - çavuş Eşqin Xəlilov (17074 saylı hərbi hissə)

**70 kq**

**I yer** - əsgər Amid Əliyev (16077 saylı hərbi hissə)
**II yer** - gizir Təbriz Kamilov (67987 saylı hərbi hissə)
**III yer** - əsgər Sənan Tanrıverdiyev (17074 saylı hərbi hissə)

**75 kq**

**I yer** - əsgər Fərid Nəsirov (99713 saylı hərbi hissə)
**II yer** - əsgər Elşad Bəkərov (17072 saylı hərbi hissə)
**III yer** - çavuş Elmar İlyasov (12318 saylı hərbi hissə)

**80 kq**

**I yer** - çavuş Hilal Əliyev (99713 saylı hərbi hissə)
**II yer** - baş leytenant Elman Abdullayev (25031 saylı hərbi hissə)
**III yer** - gizir Elnur Abbasov (16075 saylı hərbi hissə)

**85 kq**

**I yer** - gizir Rasim Yaxin (99713 saylı hərbi hissə)
**II yer** - leytenant Rəşad Bağıyev (17074 saylı hərbi hissə)
**III yer** - çavuş Ruslan Mürşüdov (16075 saylı hərbi hissə)

**90 kq**

**I yer** - çavuş Məmməd Paşayev (67987 saylı hərbi hissə)
**II yer** - baş əsgər Ruslan Kübərov (67987 saylı hərbi hissə)
**III yer** - mayor Hikmət Məmmədov (25031 saylı hərbi hissə)

**+ 90 kq**

**I yer** - əsgər Ceyhun Abdullayev (17072 saylı hərbi hissə)
**II yer** - çavuş Əli Bayramov (99713 saylı hərbi hissə)
**III yer** - leytenant Rəvan Abışov (25033 saylı hərbi hissə)
**III yer** - əsgər Vüqar İsmayılov (67987 saylı hərbi hissə)

### Armrestlinq üzrə:

**65 kq**

**I yer** - leytenant Məcid Səfibəyli (AHM)
**II yer** - leytenant Nadir Şərifov (12318 saylı hərbi hissə)
**III yer** - gizir Elnur Vəliyev (16077 saylı hərbi hissə)

**70 kq**

**I yer** - əsgər Məhəmməd Cəfərov (16077 saylı hərbi hissə)
**II yer** - gizir Abdurəhman Mahmudov (99713 saylı hərbi hissə)
**III yer** - gizir Təbriz Kamilov (67987 saylı hərbi hissə)

**75 kq**

**I yer** - kiçik çavuş Əfqan Zaxmayev (16077 saylı hərbi hissə)
**II yer** - çavuş Fuad Abışov (25033 saylı hərbi hissə)
**III yer** - əsgər Savalan İbrahimov (67987 saylı hərbi hissə)

**80 kq**

**I yer** - baş çavuş Elvin Eminov (67987 saylı hərbi hissə)
**II yer** - əsgər Abbas Təlverdiyev (25031 saylı hərbi hissə)
**III yer** - əsgər Məmmədsəid Hacıyev (17072 saylı hərbi hissə)

**85 kq**

**I yer** - çavuş Ruslan Mürşüdov (16075 saylı hərbi hissə)
**II yer** - çavuş Altun Rzazadə (17071 saylı hərbi hissə)
**III yer** - çavuş Məharət Nağıyev (17071 saylı hərbi hissə)

**90 kq**

**I yer** - baş əsgər Ruslan Kübərov (67987 saylı hərbi hissə)
**II yer** - çavuş Məmməd Paşayev (67987 saylı hərbi hissə)
**III yer** - leytenant Taleh Əsgərov (16077 saylı hərbi hissə)

**+ 90 kq**

**I yer** - çavuş Faiq Abbasov (16075 saylı hərbi hissə)
**II yer** - baş çavuş Elşən İsmayılov (17072 saylı hərbi hissə)
**III yer** - əsgər Vüqar İsmayılov (67987 saylı hərbi hissə)

99713, 67987 və 16077 saylı hərbi hissələr şəxsi hesablarına daha çox xal toplayaraq turnir cədvəlinin ilk üçlüyündə qərarlaşıblar. Aktivində heç bir xalı olmayan 16073, 16076 və 17077 saylı hərbi hissələr isə ardıcıl olaraq son pillələrdə yer alıb.

**baş leytenant T.Əlizadə**

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV

ƏSGƏR

№ 02 (468)
30 yanvar 2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN YANINDA İQTİSADİ VƏ SOSİAL MƏSƏLƏLƏRİN HƏLLİ İLƏ BAĞLI MÜŞAVİRƏ KEÇİRİLİB

***Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirə keçirilib.***

Prezident İlham Əliyev bildirdi ki, 2015-ci ildə dünyada neftin qiymətinin kəskin düşməsi nəticəsində neft ixrac edən ölkələr çətinliklərlə üzləşiblər və bu proses indi də davam edir. Son bir ildə neftin qiymətinin 4 dəfə düşdüyünü, bunun isə gəlirlərin azalmasına təsir etdiyini deyən dövlətimizin başçısı hazırda Azərbaycanın vəziyyətdən çıxmaq üçün addımlar atdığını, digər neft ölkələri ilə müqayisədə ən az itki ilə üzləşdiyimizi diqqətə çatdırdı. Nazirlər Kabinetinin ötən iclasında verilən tapşırıqlar yerinə yetirildiyi təqdirdə Azərbaycanın çətinliklərdən asanlıqla çıxacağını deyən Prezident İlham Əliyev ölkədə islahatların dərinləşməsinin vacibliyini vurğuladı, bununla bağlı səslənən təkliflərin artıq icra olunmağa başladığını dedi. İlk növbədə insanların sosial müdafiəsi ilə bağlı məsələlərin diqqət mərkəzində saxlanılacağını deyən dövlətimizin başçısı son illərdə ölkədə həyata keçirilən işlərin insanların rifah halının daha da yaxşılaşdırılmasına yönəldiyini bildirdi. Bu yaxınlarda pensiya və əmək haqlarının 10 faiz qaldırılmasının bu istiqamətdə atılan önəmli addım olduğunu dedi.

Prezident İlham Əliyev çıxışında süni bahalaşmaya da münasibət bildirdi, bu problemə qarşı ciddi mübarizə aparılmasının əhəmiyyətini vurğuladı. İşbazların qiymətləri süni şəkildə bahalaşdırmağa çalışdığını deyən dövlətimizin başçısı görülən tədbirlər nəticəsində çörəyin və unun qiymətinin əhəmiyyətli dərəcədə aşağı düşdüyünü bildirdi.

Struktur islahatları ilə bağlı artıq müəyyən addımların atıldığını deyən Prezident İlham Əliyev bildirdi ki, bu tədbirlər daimi olmalı, bir-birini təkrarlayan və lazımsız dövlət qurumları ya birləşdirilməli, ya da ləğv olunmalıdır. Valyuta bazarının tənzimlənməsi ilə bağlı müvafiq göstərişlərin verildiyini, təkliflərin hazırlandığını deyən dövlətimizin başçısı bu sahədə qanunvericilik bazasının möhkəmləndirilməsinin əhəmiyyətinə toxundu, Milli Məclisin növbədənkənar sessiyasında məsələyə baxılacağını dedi. Bundan əlavə, Prezident İlham Əliyev beynəlxalq ekspertlərin iştirakı ilə geniş özəlləşdirmə proqramının hazırlanması, bu işə xarici və yerli investorların cəlb olunması, iqtisadi canlanmaya nail olmaq üçün biznes mühitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verdi.





Dövlətimizin başçısı manatın etimadının bərpası ilə bağlı ciddi tədbirlərin görülməsinin əhəmiyyətinə də toxundu, hazırda ölkədə müşahidə olunan dollarizasiya prosesinin heç bir iqtisadi əhəmiyyətinin olmadığını dedi. Manatın məzənnəsinin sabit saxlanmasının təkcə hökumətdən asılı olmadığını deyən dövlətimizin başçısı bank sektorunun tənzimlənməsi ilə bağlı təkliflərə baxıldığını, problemli bankların sağlamlaşdırılması prosesinin aparılması, dövlət istiqrazlarının buraxılması, əmanətlərin sığortalanması ilə bağlı əlavə tədbirlərin görülməsinin vacibliyini bildirdi, bu kimi tədbirlərin milli valyutaya olan inamı artıracağını dedi.

Prezident İlham Əliyev bildirdi ki, ölkəmizin xarici borcunun çox aşağı səviyyədə olması və mövcud vəziyyət nəzərə alınaraq xarici maliyyə bazarlarından lazımi qədər maliyyə resursları Azərbaycan bazarına cəlb edilə bilər. Qeyri-neft sektorunun inkişafının indiki vəziyyətdə prioritet olmasının vacibliyini bildirən dövlətimizin başçısı Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə bu il 250 milyon manat güzəştli kreditlərin veriləcəyini, sahibkarların öz maliyyə resurslarını da nəzərə alaraq, o zaman regionlara qoyulan investisiyanın həcminin təxminən 1 milyard manat olacağını bildirdi.

Prezident İlham Əliyev çıxışında daha bir vacib məsələyə toxundu, iş adamlarına böyük tikinti layihələrini icra etmək üçün şəraitin yaradılması, bu sahədə mövcud olan əsassız tələblərin, bürokratiya və korrupsiya hallarının aradan qaldırılması ilə bağlı ciddi tapşırıqlar verdi. Bununla yanaşı, dövlətimizin başçısı ipoteka bazarının səmərəliliyinin artırılması, bu yolla inşa olunacaq binaların tikintisinin sürətləndirilməsi ilə bağlı təkliflərin hazırlanmasını tapşırdı.

Son 10 ildə Azərbaycanın dünyada ən sürətlə inkişaf edən ölkə olduğunu deyən Prezident İlham Əliyev bunu bütün beynəlxalq və maliyyə qurumlarının təsdiq etdiyini dedi, bu il ərzində Azərbaycanda iqtisadi inkişafla bağlı heç bir problemin olmayacağına əminliyini ifadə etdi.

Hökumət üzvləri də müzakirələrdə çıxış etdilər.

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Yanvarın 19-da Daxili İşlər Nazirliyində Daxili Qoşunların 2015-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş nazir-yanı əməliyyat müşavirəsi keçirilib.***



Müşavirəni giriş sözü ilə açan Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 2015-ci ildə cəmiyyət həyatının bütün sahələrində olduğu kimi bütövlükdə ordu quruculuğu, o cümlədən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsi sahəsində aparılan işlərin də geniş vüsət aldığını xatırladıb, Qoşunların maddi-texniki bazasının daha da möhkəmləndiyini, müasir silah və texnika alındığını, şəxsi heyətin sosial-məişət problemlərinin həlli istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirildiyini vurğulayıb.

Hesabat dövründə Daxili Qoşunlar tərəfindən qanunvericiliklə müəyyən edilmiş vəzifələrin icrası istiqamətində bir sıra işlər görülüb, şəxsi heyət ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlıqla mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak edib, yüksək döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlıq nümayiş etdirib.

Qeyd olunub ki, görülmüş işlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən layiqincə qiymətləndirilir. Bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərlərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təminini, heç bir halda arxayınlaşmamağı tələb edir.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Komandan deyib ki, ötən il qarşıya qoyulan əsas tapşırıqlardan olan I Avropa Oyunları və atıcılıq üzrə Dünya Kuboku kimi mötəbər beynəlxalq tədbirlər zamanı qoşunlar digər hüquq-mühafizə orqanları ilə birlikdə müəyyən edilmiş vəzifələri peşəkarlıqla həyata keçirib. Bakı, Mingəçevir və Qəbələ şəhərlərində keçirilmiş beynəlxalq yarışlar və digər kütləvi tədbirlər zamanı həvalə edilmiş ictimai qaydanın və ictimai təhlükəsizliyin təmini üzrə xidmətin aparılması yüksək peşəkarlıqla icra olunub.

*davamı səhifə 2-də*

## BAŞ İDARƏDƏ "2015-ci İLDƏ DAXİLİ QOŞUNLARDA XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN YEKUNLARI VƏ QARŞIDA DURAN VƏZİFƏLƏR HAQQINDA" HƏRBİ ŞURANIN İCLASI KEÇİRİLİB

***Yanvarın 19-da Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsində "2015-ci ilin Daxili Qoşunların xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr haqqında" Hərbi Şuranın geniş tərkibdə iclası keçirilib.***






İclasda Azərbaycan Respublikası Prezidentinin Müdafiə məsələləri üzrə köməkçisi xidmətinin baş məsləhətçisi general-mayor Rövşən Tapdıqov iştirak edib.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov iclasın gündəliyini açıq elan etdikdən sonra məruzə ilə çıxış edib.

Bildirib ki, 2015-ci ildə də Azərbaycan ictimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkələr sırasında olub. Ölkəmizdə bütün sahələrin inkişafına təkan verən mühüm amillərdən biri olmaqla yanaşı, həm də milli təhlükəsizliyimizin strateji qarantı sayılan ictimai-siyasi sabitliyin əsaslarını tətbiq edilən yeniliklər, innovativ inkişaf modelləri, qanunvericilik bazasının zənginləşdirilməsi və sosial-siyasi təsisatların legitimləşdirilməsi təşkil edir. Eyni zamanda, dünyada iqtisadi böhranın daha da dərinləşməsinə baxmayaraq, Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini deyən Daxili Qoşunların Komandanı ötən il ümumdaxili məhsulun 1 faizdən çox, qeyri-neft sektorunun 8,4 faiz artdığını, ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulduğunu şura iştirakçılarının diqqətinə çatdırıb.

O deyib ki, 2015-ci il Daxili Qoşunlar üçün də əlamətdar olub, qarşıya qoyulmuş bütün xidməti-döyüş tapşırıqları yerinə yetirilib, bir sıra nailiyyətlərə imza atılıb.

Belə ki, 2015-ci ildə «I Avropa Oyunları» və «Atıcılıq üzrə Dünya Kuboku» kimi beynəlxalq tədbirlərin keçirilməsi zamanı hüquq-mühafizə orqanları ilə birlikdə Daxili Qoşunlar müəyyən edilmiş vəzifələri peşəkarlıqla həyata keçirib. Bakı, Mingəçevir və Qəbələ şəhərlərində həvalə edilmiş 14 yarış və 11 qeyri-yarış obyektində ictimai qaydanın və ictimai təhlükəsizliyin təmini üzrə xidmətin aparılması yüksək peşəkarlıqla icra olunub.

19 may 2015-ci il tarixdə Bakı şəhəri, Binəqədi rayonunda yerləşən 16 mərtəbəli binada baş vermiş yanğınla əlaqədar qoşunların şəxsi heyəti fövqəladə halın fəsadlarının aradan qaldırılmasında iştirak etmiş, axtarış tədbirləri zamanı köməksiz qalmış vətəndaşlar aşkar olunaraq təxliyyə edilib.

20 avqust 2015-ci il tarixdə daxili işlər orqanlarının əməkdaşları ilə birlikdə qoşunların şəxsi heyəti Mingəçevir şəhərində keçirilən razılaşdırılmamış kütləvi aksiya zamanı ictimai asayişin bərpa olunmasını tam təmin edib.

Bundan başqa, Zaqatala, Balakən və Qax rayonlarında "Xaş-Xaş 2015", Şabran rayonunda "Sərhəd-Sipər" şərti adları altında narkotik tərkibli bitkilərin yabanı halda yayılmasının və kultivasiya edilməsinin qarşısının alınması üzrə irimiqyaslı, kompleks əməliyyat-axtarış tədbirlərində polis orqanlarının əməkdaşları və Sərhəd Qoşunlarının şəxsi heyəti ilə birgə Daxili Qoşunların hərbi qulluqçularının fəaliyyəti nəticəsində, ümumilikdə, 4735 ədəd narkotik tərkibli bitki tapılaraq məhv edilib.

*davamı səhifə 2-də*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin

# Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 19 yanvar 2016-cı il**

# DAXİLİ QOŞUNLARIN KOMANDANI ƏSGƏR VALİDEYNLƏRİ İLƏ GÖRÜŞÜB

***Yanvarın 24-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində əsgər valideynləri ilə görüşüb, onların təklif və müraciətlərini dinləyib.***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində həyata keçirilən məqsədyönlü islahatlar, habelə sabitliyin qorunub saxlanılmasında mühüm rol oynayan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının əldə etdiyi nailiyyətlər barədə geniş məlumat verən general-leytenant Ş.Məmmədov qeyd edib ki, dünyada və regionda iqtisadi böhranın dərinləşməsinə baxmayaraq, ölkəmizdə bu istiqamətdə dövlət başçısı tərəfindən mütərəqqi addımlar atılmaqdadır: "Hal-hazırda Daxili İşlər Nazirliyinin tərkib hissəsi olan Daxili Qoşunların şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə hərtərəfli şəraitə malik yaşayış komplekslərinin, yeni



hərbi şəhərciklərin, əsgər kazarmalarının tikilib istifadəyə verilməsi, o cümlədən növbəti dəfə vəzifə maaşlarının artırılması ölkə rəhbərliyinin hərbi qulluqçulara göstərdiyi diqqət və qayğısının nəticəsidir".

Daxili Qoşunların Komandanı əsgər valideynlərini əmin edib ki, bundan sonra da övladlarının normal xidmət keçmələri üçün hərtərəfli şərait yaradılacaq.

Görüşdə əsgərlərin sağlamlıq durumu ilə bağlı məsələlərə də toxunulub. Vurğulanıb ki, Daxili Qoşunların bütün hərbi hissələrində sanitar-gigiyenik qaydalara riayət olunması, yoluxucu xəstəliklərə qarşı immunitetin artırılması üçün şəxsi heyətin keyfiyyətli qidalanma ilə təmin edilməsi ciddi nəzarət altında saxlanılır.

Sonra valideynlərin müraciətləri dinlənilib. Hərbi hissədə yaradılmış hərtərəfli şəraitə görə Respublika Prezidentinə, həmçinin Daxili İşlər Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirən valideynlərin əksəriyyəti övladlarının müddətli həqiqi hərbi xidməti başa vurduqdan sonra Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında qalıb xidmətlərini davam etdirməyə köməklik göstərilməsini xahiş ediblər.

Valideynlər tərəfindən övladlarının Daxili Qoşunlarda hərbi xidmətlərini davam etdirmələri üçün çoxsaylı müraciətlərin səsləndirilməsinin sevindirici hal olduğunu deyən Daxili Qoşunların Komandanı arzu və istəklərin yerinə yetirilməsi istiqamətində konkret göstərişlər verib. İcrası mümkün olan məsələlər isə yerindəcə həllini tapıb.

**Mətbuat xidməti**

# DÖYÜŞ TAPŞIRIĞI MÜVƏFFƏQİYYƏTLƏ YERİNƏ YETİRİLİB

Yanvar ayının 20-də Masallı rayonu Mahmudavar kəndində 89 ədəd 30 mm-lik PDM-2 üçün lent üzərində PD markalı zirehdələn, işıqsaçan mərmisi tapılıb. Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq göstərişinə əsasən, 25033 saylı hərbi hissənin mühəndis-istehkam manqasının şəxsi heyəti təyin olunmuş yerə göndərilib. Aşkar olunmuş sursatın partlama təhlükəsi olduğu üçün təhlükəsiz ərazidə partlama üsulu ilə zərərsizləşdirilib. Hər dəfə olduğu kimi bu dəfə də şəxsi heyət qəflətən qarşıya çıxmış döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirib.

Bu, bir daha Daxili Qoşunların yüksək döyüş hazırlığını qoruyub saxlamasından xəbər verir.

# AZƏRBAYCANIN ADI ƏN YAXŞI ÖLKƏLƏR SİYAHISINDA

İsveçrənin Davos şəhərində işə başlayan Beynəlxalq İqtisadi Forumda dünyanın yaşamaq üçün ən əlverişli ölkələrinin reytinqi dərc olunub. Reytinq tərtib olunarkən dünyanın 60 ölkəsi götürülüb.

"U.S News and World Report" jurnalı siyahının tərtib olunması üçün həmin ölkələrin 16 min sakinini sorğuya cəlb edib və 24 meyar əsasında (mədəni irs, həyat səviyyəsi, güc və nüfuz, korrupsiya və vergilər, ali təhsilin keyfiyyəti və s.) ölkələrin reytinqi müəyyənləşdirilib.

Reytinq cədvəlində Azərbaycan 60 ölkə arasında yaşamaq üçün ən yaxşı 53-cü ölkə seçilib. Biznes mühitinə görə 43-cü, nüfuzuna görə 38-ci və həyat səviyyəsinə görə 56-cı pillədə qərar tutub.

Qonşu ölkələr arasında Rusiya 24-cü, Türkiyə 30-cu, Qazaxıstan 55-ci, İran 58-ci, Ukrayna isə 59-cu pilləni tutub.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

*əvvəli səhifə 1-də*

May ayında paytaxtın Binəqədi rayonunda yerləşən çoxmərtəbəli binada baş vermiş yanğınla əlaqədar Daxili Qoşunların xüsusi təyinatlıları və helikopter ekipajı fövqəladə halın fəsadlarının aradan qaldırılmasında fəal iştirak edərək axtarış tədbirləri nəticəsində köməksiz qalmış 6 nəfəri təxliyyə ediblər.

Hesabat dövründə qoşunlarda döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması məqsədilə şəxsi heyətin praktiki bacarığının artırılması, fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi, təlim-tədris bazasının inkişaf etdirilməsi döyüş təliminin başlıca vəzifələrini təşkil edib. Bununla yanaşı, polis orqanları ilə birgə qarşılıqlı əlaqənin və fəaliyyətlərin təkmilləşdirilməsi də təlim prosesində prioritet məsələlərdən olub.

Nazirliyin rəhbərliyinin tapşırığına uyğun olaraq, hərbi qulluqçuların mənəvi-psixoloji hazırılığının yüksəldilməsi, o cümlədən şəxsi heyətin Vətənə və hərbi anda sədaqət, hərbi nizamnamələrin tələblərinə sözsüz əməl edilməsi ruhunda tərbiyə olunması, onlarda xidmətin çətinliklərinə dözüm keyfiyyətlərinin formalaşdırılması istiqamətində zəruri tədbirlər görülüb.

Qanunçuluğun, nizam-intizamın möhkəmləndirilməsi, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarına uyğun qurulması sahəsində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq əvvəlki dövrlə müqayisədə ötən il ölüm halları 71 faiz, cinayətlərin sayı 80 faiz, kobud intizam pozuntuları 48 faiz, ümumi hadisələrin sayı 24 faiz, bədən xəsarətlərinin sayı 21 faiz azalıb.

Bildirilib ki, şəxsi heyətin kazarma-məişət şəraitinin müasir standartlara uyğunlaşdırılması, hərbi hissə və bölmələrin silah və xüsusi texnika ilə təchizatı istiqamətində işlər bilavasitə uğurla davam etdirilib. Hesabat dövründə məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Sumqayıt şəhərindəki hərbi hissədə 60 mənzilli yataqxana binası, paytaxtın Nərimanov rayonunda yerləşən hissədə yeni qərargah və əsgər kazarması, Hacıqabulda 4 mərtəbəli əsgər kazarması, tibb məntəqəsi, hamam-camaşırxana kompleksi lazımi avadanlıqlarla təmin edilərək istifadəyə verilib.

Ötən ilin sonlarında Nardaranda dövlətin konstitusiya quruluşunun əsasları əleyhinə yönəldilən hərəkətlərin qarşısının alınması, qanunçuluğun, sabitliyin və ictimai qaydanın bərpası məqsədilə Daxili Qoşunların məhdud sayda şəxsi heyəti də cəlb edilməklə keçirilmiş xüsusi əməliyyat nəticəsində qəsəbədə ictimai asayiş və təhlükəsizlik təmin edilib, dövlət və bələdiyyə orqanlarının normal işi ilə bağlı aidiyyəti qurumlara zəruri köməklik göstərilib.

Müşavirəyə yekun vuran Daxili İşlər Naziri ötən hesabat ilində Daxili Qoşunların fəaliyyətini, ümumən, yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli istiqamətində konkret tapşırıq və tövsiyələrini verib.

O deyib ki, ötən il Daxili Qoşunların şəxsi heyəti asayişin qrup halında pozulması, xüsusi əməliyyatlar və fövqəladə hallar zamanı qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirib. Cari ildə respublikada dövlət əhəmiyyətli tədbirlərin, o cümlədən mötəbər idman yarışları və beynəlxalq forumların keçiriləcəyini diqqətə çatdıran nazir bu baxımdan qoşunlarda bütün təşkilati tədbirlərin müəyyənləşdirilərək vaxtında icrasını, qüvvə və vasitələrin hər bir tədbir ərəfəsində tam hazırlıq vəziyyətinə gətirilməsini tələb edib.

General-polkovnik Ramil Usubov hərbi hissələrdə idarəçilik fəaliyyətinin, döyüş xidmətinin təşkili və aparılmasının, hərbi qulluqçuların Vətənə, dövlətə və dövlətçiliyə sədaqət ruhunda tərbiyə edilmələrinin, mənəvi-psixoloji, fiziki və döyüş hazırlığının daha da yüksəldilməsinin, ekstremal hallar da daxil olmaqla, onların qanunvericiliklə müəyyən edilmiş qaydada polis əməkdaşları ilə bərabər istənilən əmr və göstərişlərin ən yüksək səviyyədə icrasına hər zaman hazır olmalarının, bu zaman şəxsi heyət tərəfindən qanunçuluğa, insan hüquq və azadlıqlarına ciddi riayət edilməsinin zəruriliyini bir daha qeyd edib.

Nazir Daxili Qoşunların şəxsi heyəti adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevi əmin edib ki, hərbi qulluqçular qanunvericiliklə müəyyən edilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, daxili sabitliyi, əmin-amanlığı pozmaq istəyən qüvvələrin qarşısını qətiyyətlə alacaq, xalqa, dövlətə və Prezidentə sədaqətlə xidmət edəcəklər.

# BAŞ İDARƏDƏ "2015-ci İLDƏ DAXİLİ QOŞUNLARDA XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN YEKUNLARI VƏ QARŞIDA DURAN VƏZİFƏLƏR HAQQINDA" HƏRBİ ŞURANIN İCLASI KEÇİRİLİB

*əvvəli səhifə 1-də*







Daxili Qoşunların Komandanı həmçinin əlavə edib ki, ümumiyyətlə, ötən ildə respublikanın müxtəlif şəhər və rayonlarında futbol oyunları, konsert və digər kütləvi tədbirlər zamanı xidmətə cəlb olunan şəxsi heyət tapşırıqların öhdəsindən layiqincə gəlib.

Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov xüsusi olaraq vurğulayıb ki, hesabat dövründə beynəlxalq və respublika əhəmiyyətli tədbirlər zamanı Daxili Qoşunların nümayiş etdirdiyi nümunəvi xidməti-döyüş fəaliyyəti onu deməyə əsas verir ki, sıralarımızda olan hər bir hərbi qulluqçu dövlət və dövlətçiliyimizə sadiq, Vətəninə, xalqına son dərəcə bağlıdır.

Görülmüş işlərin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən layiqincə qiymətləndirildiyini xüsusi olaraq vurğulayan general-leytenant Ş.Məmmədov qoşunların yaranmasının 23-cü ildönümü münasibəti ilə müvafiq sərəncamla 2 nəfərin «Vətən Uğrunda», 1 nəfərin (ölümündən sonra) «İgidliyə görə», 22 nəfərin «Hərbi xidmətlərə görə» medalları ilə təltif edildiyini və 1 nəfərin «Əməkdar artist» fəxri adına layiq görüldüyünü qeyd edib. Bundan başqa, Azərbaycan Respublikası Daxili İşlər Nazirinin əmri ilə 22 nəfər «Hərbi xidmətdə fərqlənməyə görə» medalları ilə təltif edilib, 47 hərbi qulluqçuya mükafat qaydasında vaxtından əvvəl hərbi rütbə verilib.

General-leytenant Şahin Məmmədov əlavə edib ki, 2015-ci il dekabr ayının 1-də Nardaran qəsəbəsində Daxili Qoşunların və nizami polis hissələrinin məhdud sayda şəxsi heyəti cəlb edilməklə dövlətin konstitusiya quruluşunun əsasları əleyhinə yönəldilən hərəkətlərin qarşısının alınması, qanunçuluğun, sabitliyin və ictimai qaydanın bərpası məqsədilə hüquqi rejimin tətbiq edilməsi üçün xüsusi əməliyyat keçirilib. Uğurla keçirilən əməliyyat nəticəsində Nardaran qəsəbəsində ictimai asayiş və təhlükəsizlik təmin edilib, dövlət və bələdiyyə orqanlarının normal işi ilə bağlı aidiyyəti qurumlara zəruri köməklik göstərilib. Hazırda Nardaran qəsəbəsində ictimai asayişin təmini Daxili Qoşunların hərbi qulluqçuları və polis orqanlarının əməkdaşları tərəfindən davam etdirilir.

Döyüş təlimində əldə olunan nailiyyətləri qeyd edən Daxili Qoşunların Komandanı daha sonra şəxsi heyətin Vətənə və hərbi anda sadiqlik, hərbi nizamnamələrin tələblərinə sözsüz əməl edilməsi ruhunda tərbiyə olunması, onlarda hərbi xidmətin çətinliklərinə dözüm keyfiyyətlərinin formalaşdırılması istiqamətində zəruri tədbirlər hazırlanıb həyata keçirildiyini bildirib. Bu tədbirlərin nəticəsi olaraq 2014-cü illə müqayisədə ötən il ölüm halları 71% olmaqla 5 fakt, cinayətlərin sayı 80% olmaqla 16 fakt, kobud intizam pozuntuları 48% olmaqla 11 fakt, ümumi hadisələrin sayı 24% olmaqla 20 fakt, bədən xəsarətlərinin sayı 21% olmaqla 15 fakt azalıb.

Çıxış zamanı ötən il DİN-in Daxili Qoşunlarında quruculuq-abadlıq işlərinin davam etdirildiyi və şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində də mühüm addımların atıldığı bildirilib. Qeyd olunub ki, şəxsi heyətin məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 16075 saylı hərbi hissədə 1 ədəd 60 mənzilli yataqxana binası, 25031 saylı hərbi hissədə yeni Qərargah və əsgər kazarması istifadəyə verilib. 12318 saylı hərbi hissədə isə 4 mərtəbəli əsgər kazarması ilə yanaşı, tibb məntəqəsi, hamam-camaşırxana kompleksi istifadəyə verilib, müxtəlif təyinatlı obyektlərdə çoxsaylı, əsaslı təmir və yenidənqurma işləri aparılıb. Bundan əlavə, yeni odlu və xüsusi silah, avtomobil və xüsusi texnika alınaraq şəxsi heyətin istifadəsinə verilib.

General-leytenant Ş.Məmmədov son dövrlərdə olduğu kimi, 2016-cı ildə də Daxili Qoşunlarda quruculuq və yenidənqurma işlərinin davamlı olaraq həyata keçiriləcəyini, şəxsi heyətin kazarma-məişət şəraitinin müasir standartlara uyğunlaşdırılacağını, eləcə də maddi-texniki bazanın möhkəmləndiriləcəyini nəzərə çatdıraraq vurğulayıb ki, bütün bunlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qoşunların hərbi qulluqçularına göstərdiyi diqqət və qayğısının tərkib hissəsidir.

Sonra bir sıra hərbi hissə komandirlərinin və komandir müavinlərinin hesabatları dinlənilib. Bildirilib ki, 2015-ci ildə qoşunların xidməti-döyüş tapşırıqlarının xüsusiyyəti nəzərə alınmaqla onların müvəffəqiyyətlə yerinə yetirilməsi istiqamətində ciddi tədbirlər həyata keçirilib. Qoşunların hərbi hissələrində 2014-cü illə müqayisədə ötən il müsbət dinamika müşahidə olunub.

Çıxış edənlər Daxili Qoşunların Komandanının mövcud nöqsanlar, onların yaranma səbəbləri, baş vermə şəraitləri ilə bağlı suallarını da cavablandırıblar. Bu nöqsanların aradan qaldırılması və gələcəkdə təkrarlanmaması üçün görülməsi zəruri olan tədbirlər diqqətə çatdırılıb.

Daha sonra polkovnik-leytenant Rauf Əliyev Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının "2015-ci ildə Daxili Qoşunların xidməti-döyüş fəaliyyətinin yekunları barəsində" əmrini elan edib.

2015-ci ildə xidməti-döyüş fəaliyyətində, hərbi intizamın möhkəmləndirilməsində, döyüş və ictimai-siyasi hazırlıqda yüksək nəticələrə nail olduğuna və hissələr arasında 1-ci yeri tutduğuna görə 12565 saylı hərbi hissə "Keçici kubok"la, 2-ci, 3-cü yerlərə layiq görülmüş 17072 və 16077 saylı hərbi hissələr isə müvafiq olaraq "Fərman"la təltif olunub.

Qeyd edək ki, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmri ilə 119 nəfər hərbi qulluqçu 2015-ci ildə vəzifələrinin icrasına vicdanlı münasibət bəslədiyinə və nümunəvi xidmətlərinə, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində, komandir, döyüş və ictimai-siyasi hazırlığında, qayda-qanunun, hərbi intizamın möhkəmləndirilməsində yüksək nailiyyətlər nümayiş etdirdiyinə görə "Təşəkkür", "Fərman", "Qiymətli hədiyyə" və s. ilə mükafatlandırılıb.

2016-cı ildə dövlət əhəmiyyətli tədbirlərin keçirilməsi, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, silahlı cinayətkarlara qarşı mübarizə ilə əlaqədar yekun nitqində tapşırıqlar verən Daxili Qoşunların Komandanı daha sonra döyüş təlimində, döyüş xidmətinin aparılmasında, şəxsi heyətlə tərbiyə işinin təşkilində və maddi-texniki təminatın yaxşılaşdırılmasında qarşıda duran vəzifələri müəyyən edib.

Çıxışının sonunda general-leytenant Ş.Məmmədov əminliklə qeyd edib ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti Azərbaycan Respublikasının qanunlarından, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin fərman və sərəncamlarından, Daxili İşlər Nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, anda sadiq qalaraq ölkədə sabitliyin və ictimai asayişin keşiyində mətinliklə dayanacaqdır.

**Mətbuat xidməti**



# DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİ "20 YANVAR" ŞƏHİDLƏRİNİN ƏZİZ XATİRƏSİNİ YAD EDİB



20 Yanvar - Ümumxalq Hüzn Günündə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Komandanlığı və şəxsi heyəti Şəhidlər xiyabanına gedərək Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizi böyük ehtiramla yad edib, onların məzarları üzərinə qərənfillər düzüblər.

Bakı vaxtı ilə saat 12:00-da Daxili Qoşunların Baş İdarəsində və hərbi hissələrində 20 Yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Qeyd edək ki, 20 yanvar faciəsindən 26 il keçir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmişdi. O vaxt dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdü. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və Daxili Qoşunların böyük kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilmişdi.

Qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdu.

Ümummilli Lider Heydər Əliyev yanvarın 22-də Azərbaycan KP MK-ya, Ali Sovetə, Nazirlər Sovetinə, Azərbaycan xalqına 20 Yanvar faciəsi ilə əlaqədar başsağlığı teleqramı göndərmişdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 3 yanvar 2005-ci il tarixli sərəncamda göstərilir: "20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

Ümumxalq matəm günündə çağdaş milli azadlıq mübarizəsinin qurbanları, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə örnək olan şəhidlərimizə Allahdan rəhmət diləyirik.

**Mətbuat xidməti**

# I AVROPA OYUNLARININ QALİBİ İLHAM ZƏKİYEVİN AHM-in KURSANTLARI İLƏ GÖRÜŞÜ KEÇİRİLİB

***Yanvar ayının 22-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbində ikiqat dünya və Paralimpiya Oyunlarının çempionu, altıqat Avropa çempionu, ilk dəfə paytaxtımızda keçirilmiş I Avropa Oyunlarının qalibi İlham Zəkiyevin kursantlarla görüşü olub.***

Tədbiri giriş sözü ilə açan Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov fəxri qonağı səmimi salamlayıb, bu görüşdən olduqca məmnun olduğunu ifadə edərək İ.Zəkiyevin təqdimata ehtiyacı olmadığını bildirib. Qeyd edib ki, Vətənin qeyrətli oğlu, Vətən fədaisi, peşəkar idmançı kimi tanıdığımız İlhamın həyat və fəaliyyəti hər birimiz üçün - istər kursantlarımız, istərsə də pedoqoji kollektiv üçün örnəkdir. General-mayor İ.Məmmədov torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə gözlərinin nurunu itirən Qarabağ əlilinin iti zəkası və dəmir iradəsinin gələcəyin zabitlərinə əsl nümunə olacağını sözlərinə əlavə edib. O, çıxışının sonunda Vətən uğrunda sağlamlığını itirmiş hər bir insanın, o cümlədən də İ.Zəkiyevin qarşısında baş əydiyini böyük qürur hissi ilə vurğulayıb.

Sonra görüşün təşkilatçısı professor Hənifə Qurbanov çıxış edərək, Ali Hərbi Məktəbin şəxsi heyətinin, eləcə də kursantların bu cür qəhrəman insanlarla görüşlərinin əhəmiyyətindən danışıb, bu tədbirlərin onlarda vətənpərvərlik hissinin daha da yüksəlməsinə səbəb olduğunu söyləyib. Ölkəmizin ev sahibliyi etdiyi I Avropa Oyunlarının açılışının məhz İ.Zəkiyevə həvalə olunduğunu xatırladan professor



bunu dövlətimizin öz qəhrəmanına yüksək etimadı kimi xarakterizə edib.

Tədbirdə üçrəngli, ay-ulduzlu bayrağımızı dəfələrlə beynəlxalq turnirlərdə ən yüksək zirvəyə qaldırmış qəhrəmanımızın döyüş yolu və qazandığı uğurları əks etdirən video süjetlər nümayiş etdirilib.

Sonda tədbir iştirakçıları qarşısında çıxış üçün söz İ.Zəkiyevə verilib. O, hərbçilərlə görüşə böyük sevinc hissi ilə gəldiyini deyərək, bu peşənin üstünlüklərindən danışıb. Qeyd edib ki, həyatda Vətənə, xalqa və dövlətə xidmətdən daha şərəfli heç nə ola bilməz. Bu gün də özünü Vətənin əsgəri hesab edən İlham Zəkiyev qətiyyətli şəkildə bildirib ki, hərbçi kimi missiyası yarımçıq qalsa da, idmançı kimi üzərinə düşən missiyanı axıra kimi davam etdirəcək.

O, yarışlardakı inamlı qələbələrdən söz açarkən I Avropa oyunlarının final mərhələsindəki görüşün onun həyatında xüsusilə yadda qaldığını diqqətə çatdırıb: "Zəfərlə nəticələnən həmin görüş məhz 26 iyun - Azərbaycan Silahlı Qüvvələrinin yaranma gününə təsadüf etmişdi. Həlledici görüşdə çox güclü, peşəkar idmançı ilə üz-üzə gəldim. Açığını deyim, onu məğlub etmək o qədər də asan deyildi. Lakin mənim başqa yolum yox idi - yalnız qələbə. Çünki Ali Baş Komandanın inamını doğrultmalıydım. Belə də oldu, mübarizədən qalib ayrıldım və cənab Prezident məni təbrik edəndə dedim ki, Cənab Ali Baş Komandan, əsgər Zəkiyev verdiyiniz döyüş tapşırığını uğurla yerinə yetirdi".

Xidmətdə bütün hərbçilərə uğurlar arzulayan idmançımız çıxışdan sonra kursantların suallarını cavablandırıb.

Görüşün sonunda professor H.Qasımov və İ.Zəkiyev general-mayor İ.Məmmədov tərəfindən "Fəxri fərman"la təltif ediliblər.

**leytenant N.Ağayeva**

# KURSANTLARIN SEMESTR İMTAHANLARININ NƏTİCƏLƏRİ QƏNAƏTBƏXŞDİR

***İmtahanlar təcrübəli müəllim heyətinin ciddi nəzarəti altında həyata keçirilib***

Bu gün Daxili İşlər Nazirliyi Daxili Qoşunların Ali Hərbi Məktəbində ali xüsusi-hərbi təhsilli kadrların hazırlanması, zabit və gizirlərin ixtisaslarının artırılması, eləcə də elmi-təhqiqat işlərinin aparılması uğurla həyata keçirilir. Təlim-tədris prosesinin yekunu olaraq semestr imtahanlarına cəlb olunan kursantların əldə etdikləri nəticələr də bunu deməyə əsas verir.

Ali Hərbi Məktəbdə tədris prosesinin aparılması, təhsil alan kursantların imtahana cəlb olunması, maksimum bal 100-ə bərabərdir. Bunun yarısı semestr ərzindəki fəaliyyətə, digər yarısı isə aralıq qiymətləndirmənin nəticələrinə görə verilir. Semestr fənn üzrə kursantın biliyinin qiymətləndirilməsi isə nəticələrin toplanması ilə müəyyən edilir. Keçid balının minumum miqdarı 51 baldır.

Birinci kursun kursantları İnformatika istisna olmaqla, 11 fənn üzrə test üsulu ilə imtahanlara cəlb olunur. İnformatika isə praktik üsulla həyata keçirilir. Birinci kursdan fərqli



həmçinin, imtahan ərəfəsində görülən hazırlıq işləri barədə Tədris şöbəsində qiymətləndirmə bölməsinin rəisi mayor Qubar Qurbanov ətraflı məlumat verdi.

Mayor Q.Qurbanov tədrisin Avropada tətbiq olunan Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğun keçirildiyini diqqətə çatdırdı. Bildirdi ki, Azərbaycan Respublikasının Prezidentinin 25 fevral 2011-ci il tarixli Sərəncamı ilə Orta İxtisas Hərbi Məktəbinin bazasında yaradılmış DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbində bu gün təlim-tədris prosesi müasir təhsil sisteminin tələblərinə uyğunlaşdırılıb.

O, dərslərin sentyabrın 15-də başladığını və 15 həftə davam etdiyini bildirdi. Qeyd etdi ki, yanvar ayında 2015-2016-cı tədris ili üçün Zabit Hazırlayan Tədris taborunun 1-ci və 2-ci kursun kursantları ilə keçiriləcək birinci semestr imtahanları ilə bağlı hazırlıq işləri yekunlaşdıqdan sonra şəxsi heyət imtahana cəlb olunur. İmtahan Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının "Kursantların biliklərinin çoxballı sistemlə qiymətləndirilməsinin təşkili haqqında" müvafiq əmrinə əsasən keçirilir.

Ali Hərbi Məktəbdə təhsil alan kursantların bir semestr ərzində hər hansı bir fənn üzrə toplaya biləcəyi olaraq, ikinci kursun bütün imtahanları test üsulu ilə aparılır. Hər iki kursda imtahanların keçirilməsi üçün vaxt 50 dəqiqədir. İmtahanda nəzarətçi müəllimlər kursantların müəyyən edilmiş qaydalara ciddi riayət etmələrinə, eləcə də imtahan prosesinin tam şəffaf şəkildə aparılmasına nəzarət edirlər. İmtahan biletlərindəki sualların hər biri iki bal olmaqla, 25 sualdan ibarətdir. Kursantlar sual kitabçasında sualın şərtini oxuduqdan sonra düzgün hesab etdiyi bəndi cavab kartında qeyd edir. İmtahan yekunlaşdıqdan sonra cavab kartları qiymətləndirmə bölməsində optik oxuyucu cihazı vasitəsilə yoxlanılır. Keçirilən fənn üzrə yekun təhlil aparılır və faiz dərəcəsi müəyyən olunur. Kursantlar imtahanın nəticələri ilə tanış edilir. Zəif nəticələr toplamış kursantlar əlavə olaraq üçgünlük məşğələlərə cəlb olunur. Sonra yenidən təkrar imtahan götürülür. Məqsəd kursantların bilik səviyyəsinin artırılmasından ibarətdir.

Hərbi Məktəbin təcrübəli müəllim heyəti tərəfindən hərtərəfli biliyə malik zabitlərin hazırlanması onu deməyə əsas verir ki, Daxili Qoşunlar bundan sonra da üzərinə düşən hər bir tapşırığın öhdəsindən layiqincə gələcək.

**baş leytenant T.Əlizadə**

# "MÜƏLLİMLƏRİ TƏKMİLLƏŞDİRMƏ KURSU"NA YEKUN VURULUB

***Professor-müəllim heyətinə sertifikatlar təqdim olunub***





Daxili Qoşunların Ali Hərbi Məktəb rəisinin müvafiq əmrinə əsasən, yanvarın 11-dən 22-dək professor-müəllim heyətinin təlim-tədris prosesində istifadə olunan strategiya, metodlar və üsulların elmi cəhətdən öyrənilməsi məqsədilə "müəllimləri təkmilləşdirmə kursu" keçirilib. Kurs müddətində mühazirə və məşğələlər Türkiyə Cümhuriyyəti Jandarma Baş Komandanlığının Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan zabit heyəti tərəfindən aparılıb. Kursda professor-müəllim heyətinin təlim-tədris prosesində keçirəcəkləri nəzəri, praktiki dərslərin metodiki cəhətdən düzgün tədris olunması, dərs planlarının, o cümlədən proqramların hazırlanmasında təlim üsullarının və metodlarının nəzərə alınması öyrədilib. Kursantların davranış qaydalarını müəyyən etmək, tədris prosesinə mənfi təsir göstərən amillərin və onların aradan qaldırılmasında müəllimin məsuliyyət hissi daşımasını aşılamaq, eyni zamanda professor-müəllim heyətinin həm psixoloq, həm pedaqoq, həm də komandir olduğunun vacibliyini vurğulamaq kimi xüsusiyyətlər də tədris olunub.

Kurs müddətində müəllimin hərəkətləri, tədris prosesinin keçirilmə metodu, kursantların diqqətini özünə cəlb etmək və s. kimi keyfiyyətlərə də aydınlıq gətirilib.

Kursu müvəffəqiyyətlə başa vuran professor-müəllim heyətinə sertifikatlar təqdim olunub.

**baş leytenant T.Əlizadə**

# ŞƏXSİ HEYƏT XİDMƏTİ-DÖYÜŞ TAPŞIRIQLARINI YERİNƏ YETİRMƏYƏ HAZIRDIR

Yola saldığımız 2015-ci il də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları üçün uğurlu olub. Bura həm paytaxt Bakı, həm də regionlarda yerləşən hərbi hissələrin əldə etdiyi nailiyyətlər aiddir.

Ötən ildə döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, habelə həvalə olunmuş tapşırıqları uğurla yerinə yetirən hissələrdən biri də 12318 saylı hərbi hissədir. Hərbi hissə xidməti-döyüş fəaliyyətinin yekunlarına görə ili müsbət nəticələrlə başa vurub.

Hərbi hissənin döyüş xidmətindən danışarkən hərbi şəhərciyin müdafiə və mühafizəsini təşkil edən komendant bölüyünün şəxsi heyətinin cəlb olunduğu qarovul xidmətinin fəaliyyətini də vurğulamaq yerinə düşər.

Komendant bölüyünün komandiri baş leytenant Anar Hacıyev qarovul nəfərlərinin seçilməsində bir sıra vacib amillərə xüsusi diqqətin yetirildiyini dedi. Əsgərlərin sağlamlıq, eyni zamanda mənəvi-psixoloji durumunu əsas şərt hesab edən bölük komandiri bu xüsusiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı qazanıldığını bildirdi. Onun sözlərinə görə, təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən əsgər postda olarkən daha ayıq-sayıq, daha hazırlıqlı olur - nəticə etibarı ilə tapşırılmış obyektin mühafizəsini qüsursuz olaraq yerinə yetirir. Postların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunur.

Xidmətin keyfiyyətlə yerinə yetirilməsində leytenantlar Təhmasib Mustafayev, Mahir Babayev, Ramin Əsgərov və Rüstəm Əfəndiyev əllərindən gələni əsirgəmirlər. Vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçulardan qarovul rəisinin köməkçisi kiçik çavuş Rəsul Məcidli, əsgərlərdən Nizaməddin Musayev, Fərid Cabbarov, Ruslan Qaralov və Alim Müzəffərlinin adlarını qeyd etmək olar.





Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstəsidir. Dəstənin əsas fəaliyyəti regiondakı ictimai təhlükəsizliyin qorunub saxlanılması ilə yanaşı, hüquqazidd əməllərin qarşısının alınması, o cümlədən silahlı cinayətkarların axtarılıb tutulması və zərərsizləşdirilməsidir.

Dəstə komandiri vəzifəsini icra edən kapitan Sahib İbrahimov birdirdi ki, yüksək döyüş hazırlığını qoruyub saxlamaq məqsədilə şəxsi heyət mütəmadi olaraq məşğələlərə cəlb olunur. Əsasən praktiki təlimlərə üstünlük verildiyini deyən dəstə komandiri Daxili Qoşunlar Komandanının müvafiq əmrinə əsasən, şəxsi heyətin ayda 1 dəfə olmaqla 2-3 günlük "Dəstə reyd fəaliyyətində" mövzusunda xüsusi-taktiki təlimlərə cəlb olunduğunu bildirdi. Şəxsi heyət tərəfindən ciddi yanaşılan xüsusi-taktiki hazırlıq, hərbi dağçılıq, hərbi topoqrafiya, ləpirçilik, hərbi mühəndis, həmlə-desant hazırlığı məşğələləridir.



Təlimlərdə əməliyyat-axtarış fəaliyyətinə də üstünlük verdiklərini vurğulayan kapitan S.İbrahimov cinayətkarların axtarılması və tutulması zamanı hər hansı bir maneə ilə rastlaşdıqda onu ötüb keçmə üsullarının öyrədildiyini nəzərə çatdırdı. Qeyd etdi ki, təlimlər şəxsi heyətin peşə vərdişlərinin artırılmasında əhəmiyyətli dərəcədə rola malikdir. Hərbi qulluqçuların döyüş hazırlığının qənaətbəxş olması, eyni zamanda onlarda formalaşmış yüksək mənəvi-psixoloji keyfiyyətlərin mövcudluğunun göstəricisidir. Bu baxımdan, döyüş ruhunun artırılması istiqamətində daima lazımi tədbirlər həyata keçirilir.

Ötən ildə əldə edilmiş nailiyyətlər deməyə əsas verir ki, 12318 saylı hərbi hissə regionda ictimai sabitliyin qarantıdır.

**baş leytenant T.Əlizadə**